# MEMARLIQ ELMİNDƏ FƏLSƏFİ ANLAYIŞLARIN ROLU

**Axundova Sürayyə Əlifağa qızı-** dosent, Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrası, AzMİU, sureyya.axundova@gmail.com

**Annotasiya.** Memarlıq elminin nəzəriyyəsində və tarixində kifayət qədər fəlsəfi terminlərə və anlayışlara rast gəlmək olar. Bu vəziyyət demək olar ki, təbii bir haldır. Memarlıq nəzəriyyəsi ilə fəlsəfə elmi bir elmi cərəyanda gedir və bir-birinə yaxın elmlər kimi qəbul olunur. Bu baxımdan, elmi fəlsəfənin bir istiqaməti olan metodologiya bölməsi buna bir nümunədir. Metodologiya elminin açıqlanması- insan fəaliyyətinin quruluşu, məntiqi təşkili, metodları və vasitələri haqqında elmdir. Memarlıq insanla qırılmaz bağlıdır, o, onun bütün həyatını əhatə edir və ona qulluq edir. Daha mühüm və xarakterik xüsusiyyətlərdə memarlığın təbiəti və mahiyyəti bəşəriyyətin inkişaf prosesində öz əksini tapır. Memarlığın ikili rolunu memarlığın bütün tarixi bizim günlərə qədər bu vəzifəni qarşımızda qoyur- cəmiyyəti maddi və mənəvi tələbatlarını yerinə yetirmək. Memarlıq elmi və tarixində anlayışlar haqqında, ənənə, novatorluq, fəlsəfi anlayışlar haqqında məsələlərə bu məqələdə baxılır. Bundan başqa, memarlıq elmində və tarixində fəlsəfi anlayışların istifadəsi məsələləri tədqiq olunur.
**Açar sözlər:** metodologiya, elm, memarlıq, fəlsəfə, tarix, ənənə, tədqiqat, novatorluq, problem, təhlil, irs

# THE ROLE OF PHILOSOPHICAL CONCEPTS IN ARCHITECTURAL SCIENCE

**Akundova Surayya Alifaga-** docent, department of Restoration of architectural constructions and monuments, AzUAC, sureyya.axundova@gmail.com

**Abstract.** In modern literature, the methodology is usually understood primarily as a methodology for scientific cognition. That is, teaching about the principles of construction, forms, and methods of scientific and cognitive activity. The methodology of science provides a description of the components of scientific research-its object, the subject of analysis, the task of research (or problem), and the totality of research tools needed to solve a task of this type. The whole history of architecture from ancient times to our days testifies to this dual role of architecture, about two tasks that always facing it: -The task of meeting the material needs of society: -The task of meeting the spiritual needs of society as a kind of art. This article discusses the role of philosophical concepts of innovation, tradition, and heritage in architectural science and history. This article investigates the points of using philosophical concepts in architectural science, theory, and history of architecture.
**Keywords:** methodology, science, architecture, philosophy, history, tradition, innovation, analysis, problem, research, heritage

Memarlıq elminin nəzəriyyəsi və tarixində kifayət qədər fəlsəfi terminlər və anlayışlara rast gəlmək olar. Bu vəziyyət demək olar ki, təbii bir haldır. Memarlıq nəzəriyyəsi ilə fəlsəfə elmi bir elmi cərəyanda gedir və birbirinə yaxın elmlər kimi qəbul olunur. Bu baxımdan, elmi fəlsəfənin bir istiqaməti olan metodologiya bölməsi buna bir nümunədir. Metodologiyanın açıqlaması- insan fəaliyyətinin quruluşu, məntiqi təşkili, metodları və vasitələrini təşkil edir. Metodologiya elmi insan fəaliyyətinin müəyyən növlərinin tərkibi və ardıcıllığı təsbit olunmuş göstəricilər və normalar şəklində çıxış edir. Həmin elmin əsas funksiyası- tədqiq olunan obyektin dərk edilməsi və ya şəklinin dəyişdirilməsi prosesinin daxili təşkilindən və tənzimlənməsindən ibarətdir. Müasir ədəbiyyatda metodologiya dedikdə adətən ilk növbədə elmi dərk etmənin metodologiyası başa

düşülür. Yəni, elmi dərk etmə fəaliyyətinin qurulması prinsipləri, formaları və üsulları haqqında elmdir [1].

Elmin metodologiyası elmi tədqiqatın komponentlərinin- onun obyektinin, təhlili predmetinin, tədqiqat vəzifələrinin (və ya problemlərin), bu tip məsələnin həlli üçün lazım olan tədqiqat vasitələrinin cəminin xarakteristikasını verir [2]. Metodologiya elmində olan fəlsəfi anlayışlara daha çox rast gəlmək olar.

Bu anlayışlar həm fəlsəfə, həm də memarlıq elminin nəzəriyyəsi və tarixində istifadə olunan anlayışlardır və bu kimi anlayışlar memarlıq elmində öz yerini artıq tapmışdır. Bundan əlavə metodologiya məsələnin həlli prosesində tədqiqatçının hərəkətlərinin ardıcıllığı haqqında təsəvvürü formalaşdırır. Metodologiyanın əsas tədbiq etmə nöqtələri problemin qoyulmasından, tədqiqat predmetinin və elmi nəzəriyyənin qurulmasından ibarətdir və bunun nəticəsində əldə olunmuş nəticənin onun həqiqiliyi, yəni onun tədqiqat obyektinə uyğunluğu nöqteyi-nəzərindən yoxlanılması aparılır [3]. Sözün əsl mənasında metodologiyanın banisi ingilis filosofu F. Bekondur. O, ilk dəfə elmi metodlar sistemi ilə təchiz etmək haqqında ideya irəli sürmüşdür və həmin ideyanı “Yeni orqanon” işində reallaşdırmışdır. Həmin vaxtdan metodologiya elm kimi fəlsəfədə ən mərkəzi yerlərdən birini tutur. Metodologiyanın inkişafında növbəti addımı fransız mütəfəkkiri R.Dekart atır [3]. O, dərk etmə problemini subyektin və obyektin münasibəti problemi kimi qısaca ifadə edir və ilk dəfə təfəkkürün özünəməxsusluğu haqqında məsələ qaldırır. Bununla R.Dekart dərk etmə prosesinin xüsusi və sistematik müzakirəsini başlamışdır.

Alman filosofu İmmanuil Kanta qədər metodologiya problemləri dərk etmə nəzəriyyəsi ilə bir-birinə sıx keçirdi. Kant ilk dəfə metodoloji elmin xüsusi statusunu əsaslandırmışdır. O, elmin obyektiv məzmunu və vasitəsi ilə onun sistemə təşkil olunduğu forma əsasında fərq qoymuşdur. Alman klassik idealizmi tərəfindən metodologiya problemlərinin öyrənilməsində əldə olunmuş obyektiv mühüm nəticə dialektikanın rolunun ümumi dərketmə metodu və ümumilikdə mənəvi fəaliyyət kimi qeyd olunmasından ibarət idi.

Dialektik materializmin yaradılması elmi metodologiyanın fəlsəfi əsaslarının formalaşdırılmasını başa çatdırdı. XX əsrdə elmin inkişafı üçün metodoloji tədqiqatların sürətli inkişafı və elmi biliyin ümumi kütləsində onların xüsusi çəkisinin artması səciyyəvidir [3]. Nəticədə müasir elm ən müxtəlif xarakterli problemlərin həlli üçün nəzərdə tutulmuş güclü, son dərəcə müxtəlif vasitələr arsenalına malikdir.

Beləliklə, əgər əvəllər metodologiya anlayışı ilk növbədə elmi dərk etmə fəaliyyətinin fəlsəfi əsasları haqqında təsəvvürlər toplusunu əhatə edirdisə, hal-hazırda ona yetərincə inkişaf etmiş və ixtisaslaşmış elm sahəsi uyğun gəlir. Bütövlükdə dərk etmə fəaliyyətinin prosesini tədqiq edən idrak nəzəriyyəsindən onu dərk etmə vasitələrinə aksent etmə fərqləndirir. Sosiologiyadan başlayaraq elmşünaslığın digər sahələrinə qədər metodologiya daxili mexanizmlərə, hərəkət məntiqinə və biliyin təşkilinə istiqamətliliyi ilə fərqlənir. Bundan əlavə, elm özü bütövlükdə cəmiyyətin praktiki fəaliyyətinin metodoloji vasitəsini təşkil edir. Bunda fəaliyyətin məqsədinin və vasitəsinin əlaqəsinin ümumi dialektikası ifadə olunur. Bir fəaliyyət sistemində məqsəd rolunu oynayan digər sistemdə vasitəyə çevrilir. Lakin metodologiyanın müasir problemləri bu bir-birinə çevrilmə ilə bitmir,çünki xüsusi ilə metodoloji funksiyaların yerinə yetirilməsi üçün nəzərdə tutulmuş elmin mövcudluğu reallıqdır [4]. Bununla əlaqədar yaranan əsas metodoloji problemlərdən birini müxtəlif dərk etmə sahələrinin müəyyən edilməsi təşkil edir. Bu əsasən təbii-elmi dərk etmə ilə müqayisədə humanitar dərk etmənin spesifik xüsusiyyətləridir.

1950-ci illərdən başlayaraq metodologiyada əsas yeni bilik sistemlərinin yaradılması və dəyişdirilməsi problemləri tutmağa başlayır. Xüsusi elmi metodologiya isə öz növbəsində bir neçə səviyyəyə bölünür: ümumi elmi metodoloji konsepsiyası və ayrı-ayrı xüsusi elmlərin metodologiyası, tədqiqatın metodikası və texnikası.

Memarlıq insanla ayrılmaz əlaqədədir, onun bütün həyatını əhatə edir və ona xidmət edir. Bu bəşəriyyətin inkişaf prosesində memarlığın təbiəti və mahiyyətində öz əksini tapmış memarlığın ən mühüm və daha səciyyəvi xüsusiyyətdir. Bütün memarlıq tarixi qədim zamanlardan bu günə kimi

memarlığın bu ikili rolu, onun qarşısında həmişə duran aşağıdakı iki vəzifələrdir: cəmiyyətin maddi tələbatlarının ödənilməsi vəzifəsi və incəsənətin bir növ kimi cəmiyyətin mənəvi tələbatlarının ödənilməsi vəzifəsi.

Funksional və bədii əsaslar memarlığın məqsədini müəyyən edir. Memarlıq tarixinin tədqiqatı zamanı biz görürük ki, müəyyən kompozisiya sistemi məkan təfəkkürünün müvafiq quruluşdan irəli gəlir və həmin quruluş dövrlər ötdükcə dəyişir və həmin sistem bütün iqtisadiyyatın, siyasətin və incəsənətin maddi vəziyyəti ilə əsaslandırılır. Bütün bunlar memarlıqda bədii obrazlar və kanonların genetik əmələ gəlməsinin dərk etməsi üçün vacibdir. Memarlıq irsinin problemlərinin həlli bundan ibarətdir. Klassik memarlıq nədir? Bunlar insanlar tərəfindən yaradılmış və həməsrlərdə gözəllik hissini doğuran abidələrdir. Bu təkcə antik Yunanıstanın, İntibahın, müsəlman Şərqinin memarlığı deyil, həmçinin daha tektonik və bədii cəhətdən düşünülmüş milli memarlıqdır.

Keçmiş dövrün böyük sənətkarlarının iş metodunun öyrənilməsi onların əsas mahiyyətinin-tikilinin surətini öz dövrünün konstruktiv imkanları əsasında və həməsrlərin tələbatlarını nəzərə alaraq ifadə etmək bacarığının üstünü açır. Belə bir sənətkarın metodunun öyrənilməsi orderin onun detalları ilə birlikdə formal öyrənilməsindən daha vacibdir [5]. Çox vaxt unudurlar ki, memarlıq binası yalnız müəyyən cəmiyyət üçün yaradıla bilər ki, o həmin cəmiyyətin dünyagörünüşünə və hisslərinə cavab verməlidir. Müasir memarlar keçmişin böyük sənətkarlarının iş metodlarını öyrənməli və onların prinsiplərini yaradıcı şəkildə dərk etməlidirlər və bütün bunlar memarlığın köhnə elementlərinin müasir dövrə mexaniki köçürülməsindən uzaqdır. Lakin burada belə bir sual yaranır- memarlıqda novatorluq məsələsi. Memarlıq yaradıcılığında novatorluq- bu ilk növbədə yeni bir şeyin icadı deyil. İncəsənət yalnız ənənədə mümkündür və ənənədən kənarda incəsənət ola bilməz [5]. Əsl novatorluq- ilk növbədə keçmişdə qoyulmuş, lakin yalnız müasir insanlığa xas olan proqressiv başlanğıcların inkişafıdır. Novatorluq metodologiyada olan vasitə kimi öz ənənəsinə malik olmaq hüququna malikdir.

Memarlıqda novatorluğun zamandan və məkandan kənar olan abstrakt başlanğıc kimi başa düşülməsi öz mahiyyətinə görə cəfəngiyyatdır. Novatorluq tarixi varisliyin əsasında qoyulmuş ideyaların inkişafı kimi başa düşülür. Memarlıqda novatorluq ilk növbədə gerçəkliyin proqressiv inkişafında onun dərk edilməsi ilə əlaqəlidir. Əgər Korbüzye haqqında bir novator kimi danışsaq, onun tərəfindən sürülmüş və praktiki olaraq həyata keçirilmiş layihələr və onların kökləri bir sıra nümunələrin ümumiləşdirilməsində durur. Novatorluq ideyaların dairəsini genişləndirmək üçün nəzərdə tutulub. Müasir memarlara ənənəvi dərk etmədən bir qədər kənara çıxmaq və bəlkədə bir qədər imkanları qabaqlamaq lazımdır, çünki onlar memarlıqda adətən texnikanın inkişafı və tədricən dəyişən memarlıq formalarının mövcudluğu arasında uyğunsuzluq nəticəsində əmələ gəlir, təkliflərdən qorxmaq lazım deyil.

Yalnız bir şey vacibdir- novatorluq anlayışı həyatın ilkin şərtlərindən irəli gəlməli və abstrakt olmamalıdır. Burada memarlıq ənənələrinə toxunmaq tam yerinə düşərdi. Memarlıqda ənənə heç də abstrakt anlayış deyil. Ənənə özündə ilk növbədə məlum qanunauyğunluğun tarixi varisliyinin xüsusiyyətini daşıyır. Memarlıq keçib gedən həyatın öz düzəlişlərinin, təshihlərinin daxil etdiyi ənənələrdən ayrılmaz olan qanunlara əsaslanır [4]. Lakin memarlıq hər zaman adət edilmiş əyaniliyini qoruyub saxlamamalıdır, xüsusilə əgər bu müasir insanı bir pillə yuxarı qaldıran bütün ən yeni texniki imkanlarla və məişət tələbatları ilə ziddiyyətə girirsə. Ənənə dedikdə keçmişdə müsbət rolunu oynamış proqressiv başlanğıcı başa düşmək daha doğru hesab olunur. Onlara indiki zamanda diqqət yetirmək lazımdır. Novatorluq isə ənənədən üzvi sürətdə ayrılmaz olmalıdır. Elmin inkişafının bu qanunu memarlıq elminə də birbaşa aiddir. Yeniliyə görə mübarizə hər zaman olacaq. Lakin həmin "yeniliyi" məsələn, Qərb ədəbiyyatında çox geniş yayılmış abstrakt doktrinalardan deyil, həyatdan irəli gələrək müəyyən etməyi bacarmaq lazımdır.

Yeniliyin axtarışı orada həmişə memarların formal axtarışlarından irəli gəlir və ya xalqın güzəranından, onun adət və ənənlərindən kənarda götürülür. Milli və beynəlmiləl haqqında, ənənələr və novatorluq haqqında mübahisələrdə biz memarlığın özünü unuduruq. Tamamilə məntiqə uyğundur ki, yeganə çıxış yolu fikrin bircürəliyi, acizlik və prinsiplisizlik kimi ağır azara,

immunitetə malik olmadığımız xəstəliyə gətirib çıxartmış “beynəlxalq üslub” oldu (Bakı şəhərində” göydələnlərin xaotik yerləşdirilməsi).

Həmçinin bunu qeyd etmək istərdik ki, layihələndirdiyimiz hər binanın gözəlliyi haqqında daha çox düşünməyi öyrənirik və ətrafa baxıb, təbiətin özünün bizə nə öyrətdiyini bilirik, ənənlərimizi və intuisiyamızın bizə nə söylədiyini yaradıcı şəkildə dərk etməyə çalışarıq. Həmişə yadımızda saxlayacayıq ki, bizim milli xüsusiyyət adlandırdığımız yalnız bu günün tələbi deyil, zamanın amiranə və məhvedilməz hökmüdür [2].

Cəmiyyətin maddi və mənəvi tələbatlarını təmin edən memarlıq məqsədəuyğunluğun və gözəlliyin vəhdəti kimi başa düşülür. Memarın ideal və sosial görüşləri, onun məkan, konstruktiv və estetik təsəvvürləri öz əksini memarlıq əsərinin bədii formasının yaradılmasında və üslubi xarakterində tapır. İnsan praktikasının növü kimi memarlıq mədəniyyət tarixinin gedişində çox mürəkkəbləşdi. Yeni durumda, o, əvvəllər heç tanımadığı problemlərlə rastlaşdı.

Memarlıq yalnız insanın əxlaqını formalaşdırmır, həmçinin insanların həyatına bilavasitə təsir göstərir, planetin simasını dəyişdirir. Bu əvvəlkindən daha çox nəzərə çarpır. Peşə qarşısında memarın səlahiyyət dairəsinin kəskin genişlənməsini tələb edən yeni ağır vəzifələr əmələ gəlmişdi [6]. Həmin problemlərin uğurlu genişlənməsi yalnız elmin, mühəndislik sənətinin, incəsənətin və sənayenin koordinasiya olunmuş, istiqamətləndirilmiş qarşılıqlı əlaqəsi şərti ilə mümkündür. Memarlıq- şəhərsalma həllərin əsaslığının artırılması üçün sosiologiya, psixologiya, təbabət, ekologiya,iqtisadiyyat və s. sahəsində- ictimai, təbii və texniki fənnlərin çox böyük dövrəsində geniş miqyaslı elmi tədqiqatlar lazımdır. Müasir memar öz axtarışlarında bədii intuisiyanı əsas hesab etmək üçün əxlaqi hüquqa malik deyil. Bizim dövrümüzdə memarlıqda incəsənətin ölçüsü elmin ölçüsünə güzəştə gedir.

Layihədən qabaq elmi məlumata təmin olunmağa kəskin tələbat memarların ölkənin elmi təşkilatları ilə qarşılıqlı münasibətlər haqqında, Elmlər Akademiyasında təmsil olunma haqqında məsələləri qaldırır. Bununla eyni vaxtda memarın müxtəlif növ məlumatın böyük həcminin qavranılmasına hazır olması haqqında məsələ qalxır. Bu isə artıq təhsil, ali məktəblərə daxil olanların seçim meyyarlarının, təhsil müddətlərinin məsələsidir. Memarlıq onun həyat prosesləri ilə əlaqədə zamanla inkişaf edir.

Memarlığın zamandan asılılığının digər tərəfləri onu ayrı-ayrı “əsərləri” seçib ayırmadan onun mühit sistemində müzakirə etdikdə açılacaq. Mühit dəyişkən və hərəkətlidir. Onun dəyişikliklərinin tempi adətən onun prosesinin bilavasitə dərk olunması məqsədi ilə çox asta olur [7]. Son yüzilliklər ərzində baş verən dəyişikliklər bir çox tədqiqatların mövzusuna çevrildi. Buna görə memarlıq və tikinti planlaşdırmanın əsas elementlərindən birinə və xalq təsərrüfatının bütün sahələrində, millətin və texnikanın uzunmüddətli inkişaf proqramlarının və onların tərəqqisinin ilkin bazasına çevrilir.

Ölkədə memarlıq elminin təşkili və ali memarlıq məktəbinin memar peşəsinin spesifik xüsusiyyəti və onun yaradıcılıq fəaliyyəti ilə qabaqcadan müəyyən edilir. Bu şəraitdə memar-alimlərin əməyinin sosial əhəmiyyəti və onların cəmiyyət qarşısında məsuliyyəti artır. Memarların fəaliyyəti əsas humanist məqsədin həllinə- müasir insanın mənəvi və maddi tələbatlarının təmin olunması və onun bir şəxsiyyət kimi ahəngdar inkişafı üçün əlverişli şəraitin yaradılmasına istiqamətlənir. Texnika, elm və incəsənət memarlıq əsərinin yaradılması zamanı bir-biri ilə sıx çəlpəşir və mürəkkəb şəkildə qarşılıqlı əlaqəyə girir. Memarlıq fəaliyyətinin yeni- yeni formaları əmələ gəlir [7].

**Nəticə.** Memarlıq layihələndirməsinin nəzəriyyəsi və metodologiyası vaxtından əvvəl inkişaf edir. Onlar texniki və elmi tərəqqidə olan bütün yenilikləri tərkiblərinə daxil edir. Elm və geniş humanitar inkişaf memarlıq yaradıcılığı üçün başlayıcı mühitə çevrilir. Bununla memarlıq elminin hakim məqsədləri müəyyən olunur. Müasir dövrümüzdə memarlıq elminin inkişafı, xüsusən də memarlıq nəzəriyyəsi və tarixi və yeni kompyüter proqramların ortaya çıxması bilavasitə memarlıq elminin daha da inkişafına gətirib çıxarır və bu da fəlsəfi anlayışların siyahısını daha da

zənginləşdirir. Həmin vəziyyət isə memarlıq elminin və təhsilinin formalaşmasında və inkişafında öz müsbət rolunu oynayır.

**Ədəbiyyat**

1.Гидион З. Время, пространство и архитектура. Москва. 1973г. 455 с.
2.Скачков Ю.П. Философия и методология в архитектурной практике. Пенза. 2014г. 312с.
3.Ушаков Е.В. Философия и методология науки. Москва. Юрайт. 2017г. 265с.
4.Саваренская Г.Ф. и др. История градостроительного искусства.Том.1-2 Москва. 1989г. 412с.
5.Прокофьева И.А. Основы методологии архитектурного анализа. Москва.2012г. 172 с.
6.Флоренский П.А. Анализ пространственности и времени.Москва. 1978г. 321с.
7. Гропиус В. Границы архитектуры. Москва. 1970г. 287с.

**References**

1.Gidion Z. Vremja, prostranstvo i arhitektura. Moskva. 1973g. 455 s.
2.Skachkov Ju.P. Filosofija i metodologija v arhitekturnoj praktike. Penza.2014g. 312s.
3.Ushakov E.V. Filosofija i metodologija nauki. Moskva. Jurajt.2017g. 265s.
4.Savarenskaja G.F. i dr. Istorija gradostroitel'nogo iskusstva.Tom. 1-2 Moskva. 1989g. 412s.
5.Prokof'eva I.A. Osnovy metodologii arhitekturnogo analiza. Moskva.2012g. 172 s.
6.Florenskij P.A. Analiz prostranstvennosti i vremeni.Moskva. 1978g. 321s.
7.Gropius V. Granicy arhitektury. Moskva.1970g. 287s.

Redaksiyaya daxil olma/Received 01.02.2019
Çapa qəbul olunma/Accepted for publication 01.03.2019